# 5. İNSAN HAQLARI - BİRLİK ÜÇÜN YENİ ƏSAS

## İnsan haqları ziddiyyətləri yumşaldır

Dyerd ÇEPEL və Antal ORKEN

*"Vətəndaş loyallığı və milli mənsubiyyət hissi arasındakı münaqişələr" məqaləsindən ("Problemı Vostoçnoy Yevropı", 350-36, 1992, Vaşinqton)*

...Dövlət vətəndaşlığının müasir statusunu təhlil edən Tomas Marşall demokratik cəmiyyətin inkişafı gedişində bu statusu ardıcıl genişləndirən üç əsas mərhələni qeyd edir:

1. 18-ci yüzillik Vətəndaşlıq hüquqları və insan Haqlarının (qanun qarşısında bərabərlik, söz, vicdan azadlığı, şəxsiyyətin müdafiəsi, mülkiyyət hüququ) meydana çıxmasının şahidi oldu.

2. 19-cu yüzillikdə Siyasi hüquqların (ümumi seçki hüququ, gizli səsvermə, xalq nümayəndəliyi, xalq özünüidarəsi, təşkilat və birliklər azadlığı, siyasi həyatda və hakimiyyət sistemində iştirak hüququ) növbəsi çatdı.

3. 20-ci yüzillik Sosial hüquqları (ümumi rifah Cəmiyyətinin inkişafını şərtləndirən fundamental hüquqlardan tutmuş sosial təminata zəmanət verən hüquqların tam spektrinə kimi) buraya əlavə etdi.

Vətəndaşlıq statusunun belə genişlənib dərinləşməsi uzunmüddətli mübarizənin nəticəsi idi. Burada belə bir cəhət həlledici rol oynadı ki, Qərbin müasir burjua cəmiyyətlərinin legitimliyi əsasında (hökumətə iqtidar bütün əhali tərəfindən verilib - H.H.) sosial ədalət və bərabərlik dəyərləri dururdu...

Vətəndaşlıq statusunun ardıcıl genişləndirilməsi bazar iqtisadiyyatının inkişafını heç də ləngitmədən tədricən bərabərsizliyi aradan qaldırırdı. Bu genişlənmə cəmiyyətin hamı üçün bərabər imkanlara əsaslanan dinamik (adamlar asanlıqla bir sinifdən digərinə keçə bilərlər - H.H) sinfi quruluşunu yaradaraq və hamının inkişafı üçün açıq olan plüralist demokratiyanı fasiləsiz yaşadaraq iqtisadiyyatın tərəqqisini sürətləndirirdi.

*(Demokratiya və onun uğurlarının mahiyyətini anlamaq baxımından aşağıdakı abzas xüsusilə əhəmiyyətlidir! - H.H.).*

Əsasında müasir vətəndaşlıq anlayışı duran cəmiyyətlərin üzvləri *bərabərsizliyə qarşı daimi mübarizə aparmaq tələbatı əldə edirlər...* Lakin daha vacibi budur ki, vətəndaşlıq statusunun müasir nəzəriyyə və praktikası müəyyən universal standart yaradır. O, təkcə sinfi və ya status iyerarxiyası hissələrinin tarazlaşdırma və nizamlanması etalonu kimi çıxış etmir, həm də etnik, milli, dini və cinsi fərqlər nəticəsində yaranan spesifik bərabərsizliyin aradan qaldırılmasına təməl yaradır.

Vətəndaşlığın belə təbirindən çıxan nəticəyə görə, dövlətin hər bir vətəndaşına o qədər eyniyyət təmin olunur ki, fərdlərin xüsusi maraqları onların arasındakı sosial-mədəni fərqlərdən irəli gələn çərçivələrlə məhdudlaşmasın. ABŞ-da ağlar və qaralar, ən müxtəlif etnik azlıq və dini konfessiya nümayəndələrinin niyə özlərini ilk növbədə Amerika (bizdə: Azərbaycan) vətəndaşı hesab etmələrini anlamağın açarı məhz bundadır.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Bu həm də onu izah edir ki, niyə çoxsaylı etnik və dini qruplara parçalanmış 18 əsr Fransasında inqilabi Konstitusiyada təsbit olunmuş vətəndaşlıq meyarı fransız doğulmağı deyil, Fransa Respublikasına mənsubluğu əsas götürür. Bu da tamhüquqlu status almağa kifayət idi.

*Yalnız vətəndaşlıq statusuna universal yanaşma və belə yanaşmaya şüurlu tələbat birliyin elə tipini yarada bilir ki, onda dil, mədəniyyət, tarix, milliyyət, din ziddiyyət və fərqləri yanaşı yaşayır.*

## İnsan Haqları və millətin tərəqqisi

Şəxsiyyətin mənəvi, siyasi və iqtisadi azadlığı, sözsüz ki, millətin uğurlu inkişafı ilə birbaşa bağlıdır. Əbəs yerə deyil ki, İngiltərə filosofu və iqtisadçısı Con Styuart Mill (1806-1873) Qərbin qabaqcıl dövlətlərinin çiçəklənməsinin əsas səbəbini, həmin dövlətlərdə elm, təhsil, biznes nümayəndələrinin bəhrələndikləri şəxsi azadlığın mövcudluğunda görürdü:

*"Təfəkkür azadlığı təkcə dahi başların yetişdirilməsi üçün zəruri deyil... O, daha çox adi insanlara lazımdır ki, qadir olduqları ən yüksək əqli inkişaf səviyyəsinə çata bilsinlər üçün adi insanlara lazımdır. Ümumi mənəvi və əqli köləlik mühitində belə fövqəladə zəkalar olub və yenə də yarana bilər, lakin belə mühitdə heç vaxt intellektual cəhətdən fəal xalq olmayıb və olmayacaq".*

Con Millin başqa bir fikri elə bil lap bu gün, cəmiyyətimizdə gedən "İnsan və dövlət" diskussiyası üçün yazılıb:

*"İnsanları öz əlində itaətkar alətə çevirmək üçün onları cırtdanlara çevirən dövlət (xeyirxah məqsədlər güdsə belə), bir gün aşkar edəcək ki, böyük işlər xırda insanlarla həyata keçirilmir və uğrunda hər şeyin qurban verildiyi mükəmməl maşın nəticədə heç nədir, çünki onun maneəsiz işləməsi üçün məhv edilmiş həyati qüvvə çatmır."*

## İnsan Haqları və müstəqillik

Hikmət HACIZADƏ,
*("Ümummilli ideya bu gün"*
*məqaləsindən, "Azadlıq", 14.12.93).*

"...Cəmiyyətdə belə bir baxış üstünlük təşkil edirdi ki, əvvəlcə müstəqillik əldə edib, sonra İnsan haqlarından söhbət açmaq olar... Çoxları hesab edir ki, bu gün milləti xilas etmək üçün diktator gərəkdir. Diktator qoy antidemokratik tədbirlər, İnsan haqlarını pozmaq hesabına milləti xilas edib bizim üçün müstəqillik əldə etsin, yalnız bundan sonra İnsan haqları barədə danışarıq...

Lakin diktatura bizi xilas etmədi. İnsan haqları bu gün daha çox pozulur, müstəqillikdən daha çox uzaqlaşmışıq.

Ümumiyyətlə, nəzəri cəhətdən Rusiyanın təsir dairəsindən çıxmaq mümkündürmü? Axı, onun bizim işimizə qarışmaq üçün kifayət qədər gücü və istəyi olacaq.

Çoxları demokratlar hökumətinin Rusiyanın iradəsi ilə yıxıldığını söyləyirlər. Bəs elə isə Rusiyanın Baltik ölkələrinə niyə gücü çatmır? Axı Rusiya Baltik dənizinə yolu itirsə də heç nə edə bilmir. Və çox güman ki, tezliklə qoşunlarını da oradan çıxaracaq.

Bu bilməcənin cavabı belədir. Mənim fikrimcə, bu gün heç kəs azad və mədəni insanı əsarətdə saxlaya bilməz. Bütün dünyanın, Rusiya liderləri və ictimaiyyətinin nəzərində Baltik ölkələri demokratiya sayəsində yüksəlmiş azad, mədəni insanların cəmiyyətidir. Belə insanları köləlikdə saxlamaq isə böyük günahdır. Qeyd edək ki, Dağlıq Qarabağ da bu yolla Azərbaycanın tərkibindən çıxmağa çalışır: biz azərbaycanlılardan daha demokratik adamlarıq, onların tabeliyində necə yaşaya bilərik, onlar bizi necə idarə edə bilərlər?

Qeyri-demokratik millətləri isə tabelikdə saxlamaq olar! Onlara qəyyumluq etmək lazımdır ki, "ayağa qalxa bilsinlər". Bu məsələ yenidən inkişaf etmiş dövlətlərin qapalı iclaslarında müzakirə obyektinə çevrilir.

Demokratiyamız nə qədərdirsə, müstəqilliyimiz də o qədər olacaq! Cəmiyyətdə yaranmış rəyin əksinə olaraq mən əminəm ki, demokratik cəmiyyət qurmadan, məişətdə insan haqlarını bərqərar etmədən biz müstəqil dövlət ola bilməyəcəyik".

HİKMƏT HACIZADƏNİN Arxiv KİTABXANASINDAN

## İnsan Haqları və bitərəflik müstəqilliyimizin əsası kimi

AVSTRİYA VARİANTI: DEMOKRATİYA VƏ
FÖVQƏLDÖVLƏTLƏRİN MARAQLARININ
NƏZƏRƏ ALINMASI.

Məlumdur ki, 1955-ci ildə ABŞ, Rusiya, İngiltərə və Fransa ilə Avstriya arasında "Müstəqil demokratik Avstriyanın bərpası haqqında" müqavilə imzalandı. Müqaviləyə əsasən, fövqəldövlətlər Avstriyanın müstəqilliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edəcəkləri haqqında öhdəlik götürür, onun AFR-ə birləşdirilməsinin mümkünsüzlüyünə təminat verirdilər, Avstriya isə demokratik prinsiplərə və bitərəfliyə riayət edəcəyi haqqında öhdəlik götürürdü.

Məsələnin buna bənzər həlli bu gün Ukrayna parlamentində müzakirə olunur: Ukrayna nüvə silahından imtina edir, Rusiya və ABŞ müttəfiqləri ilə birgə onun sərhədlərinin toxunulmazlığına təminat verirlər. Bu planı ABŞ-da sağlar qızğın müdafiə edirlər. Bu istiqamətdə iş davam edir.

Əlbəttə, Azərbaycan nüvə silahı olan Ukrayna deyil, lakin böyük intellektual qüvvə sərf etməklə bizim hökumətimiz və cəmiyyətimiz (!) prinsipcə Rusiya, ABŞ, Türkiyə və İranı inandıra bilər ki, biz dərrakəli və demokratik "Qafqaz Avtriyası"yıq. Onları inandıra bilərik ki, Azərbaycandakı nüfuzlarını bərabər bölsünlər və ölkəmizi bundan sonra əbəs yerə dartışdırmasınlar.

Əsl bitərəflik həm də hər cür ideoloji ekspansiyadan imtina etmək deməkdir. Biz həqiqətən rus imperializmi, islam fundamentalizmi və Böyük Turan haqqında danışmaqdan imtina etməli, əsarətdə olan tamillərin, uyqurların və Dalay Lamanın hərəkatımızın köməyi ilə azad olunması barədə fikirlərdən daşınmalı olacağıq.

Azərbaycan cəmiyyətinin daxilində Azərbaycanın bitərəfliyi və həyatımızın demokratik prinsipləri barəsində konsensus əldə olunmalıdır. Bundan əlavə cəmiyyət belə statusa hazır olmalıdır: məsələn, jurnalistlər hələlik onlarda olmayan vicdana malik olmalı, hakimiyyət sahibləri isə jurnalistlərin ağzına qəzet basmaqdan çəkinməlidirlər (Avropa parlamentlərinin bir neçə deputatı bu barədə mənə hiddətlə yazırdı: "...Siz demokratik maska ilə yalnız pərdələnirsiniz").

## İnsan Haqları və ölkədəki etnik münaqişələr

Biz artıq altı il sönməyən bir etnik münaqişə - on minlərlə insan həyatı aparmış Qarabağ müharibəsinə malikik. Bu münaqişə bizə "sovet milli siyasətindən" miras qalıb. SSRİ artıq mövcud deyil, biz Azərbaycanın taleyini öz əlimizə almışıq, lakin bu gün də müharibə və demokratik ənənələrin yoxluğundan "sovet milli siyasətinin" səhvlərini anlaya bilmirik. Belə münaqişələrin təkrarlanmaması üçün nə etməliyik? Bu məsələni demokratiya necə həll edir? Axı istiqlalımızın düşmənləri bizim üçün yeni-yeni etnik müharibələr yaratmağa cəhd edirlər. Mübaliğəsiz demək olar ki, Azərbaycanda "milli məsələnin" demokratik həlli müstəqilliyimizin və ölkəmizin təhlükəsizliyinin əsaslarından biri ola bilərdi.

Bu mövzuda gedən diskussiyalar elə yenicə başlamışdı ki, kəsildi, çünki cəmiyyəti daha təcili problemlər narahat edirdi. Budur, hətta 1994-cü ilin yazında parlamentin pasportlar və vizalar haqqında qəbul etdiyi qanunda da "millətin" köhnə sovet anlayışından istifadə olunub... SSRİ dövründən bu yana bizim ölkəmiz bu istiqamətdə bir addım belə irəli getməyib. Bu da təsadüfi deyil, çünki demokratların özlərinin həmin məsələ barədə yetkin mövqeləri yoxdur.

## Millətçilik ikimənalı sözdür

Hikmət HACIZADƏ,
*("Yeni Müsavat" qəzetinə
müsahibə, 11.02.94)*

... Bu müsahibə çərçivəsində millət, milli maraqlar və insan haqları, Şərq və Qərb kimi mühüm məsələnlər barədə geniş diskussiya açmaq çətindir. Yalnız onu qeyd edim ki, bu gün milli mədəniyyətimizin orijinal atributu

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

saydığımız çox şeylər 300-400 il əvvəl Qərb cəmiyyətinə də xas olub. Avropa saqaları (dastanları) və orta əsr romanlarını oxusanız, onlarda müasir Azərbaycan xarakteri və qarşılıqlı münasibətlərinə rast gələrsiniz...

Bəli, mən etnik millətçiliyin əleyhinəyəm. Zənnimcə, türkçülük təməlində nə daxili, nə də ki, xarici siyasət qurmaq olmaz. Belə hesab edirəm ki, etnik millətçilik dövlət təhlükəsizliyi üçün ən ciddi təhlükələrdən biridir. Fikrimcə, etnik millətçilik həmçinin bizim uğursuzluğun başlıca səbəblərindəndir biridir...

Bəzilərinin millət və millətçilik anlayışlarına meylini yaxşı başa düşürəm. Bu sözlər ikimənalıdır. Həmin adamlardan soruşsan, şovinizmin tam əleyhdarı olduğunu deyəcək, millətçiliyi isə millətin müstəqil dövlət qurmaq cəhdi kimi yozacaq. Bir az da dərinə getsək, məlum olacaq ki, beləsi üçün "millət" etnik anlayış olub, "millət" - türklər, millətçilik isə - tayfabazlıq deməkdir. Bəs onda Azərbaycanda yaşayan digər "millətlər" öz müqəddəs hüquqlarından niyə istifadə etməsin? Nəyə görə bizim tayfa millətçiliyimiz təbii sayıldığı halda, Jirinovskinin və "Sadval"ın millətçiliyi pislənməlidir? Halbuki ölkənin digər etnik qruplarına nisbətən biz azəri türkləri özünəməxsusluğumuzu itirməkdən daha yaxşı mühafizə olunmuşuq.

Milli məsələ haqqında diskussiyalar Avropada hələ 18-ci əsrdə başlanıb. Demokratik prinsiplərlə yanaşsaq, biz millət (Nation) anlayışını etnik qurum kimi deyil, müstəqil dövlətin bərabərhüquqlu vətəndaşlarının birliyi kimi qəbul etməliyik.

Hələ Fransa inqilabı dövründən fransız millətinə mənsubluq heç də anadan fransız doğulmağı deyil, Fransa respublikasının vətəndaşı statusuna (bütün hüquq və vəzifələrlə birlikdə) malik olmağı göstərir. Bu gün Fransada hesab edirlər ki, fransız milləti bir neçə etnik elementdən ibarətdir, fransız mədəniyyəti isə müxtəlif etnik mədəniyyətlərin qovuşmasının nəticəsidir. Fransa vətəndaşı olan ərəb, ərəbmənşəli fransız hesab olunur. Böyük Britaniya vətəndaşlarının xarici pasportlarının millət (Nation) qrafasında ingilis və ya şotland yox, "Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı" yazılır (daxili pasportlar ümumiyyətlə yoxdur).

İnsanın etnik mənsubiyyəti, onun milliyyəti heç bir rəsmi sənəddə göstərilmir, hər bir şəxs özünə etnik mənsubiyyət seçməkdə tam azaddır. İstəsə, özünü etnik fransız, istəsə - yəhudi, istəsə - qaraçı elan edə bilər, çünki demokratik ölkələrdə etnik mənşə adama heç bir imtiyaz vermir. Onu da qeyd edim ki, "Birləşmiş Millətlər Təşkilatı", "milli təhlükəsizlik", "milli yığma komanda", "milli bank" kimi adlar məhz bu cür anlama əsaslanır.

Belə anlam bütün demokratik ölkələrdə qəbul olunub və niyə bizə yaramamalıdır?

Belə anlama da "millət" sözü SSRİ-də qəbul olunmuş "xalq" sözünə (Azərbaycan xalqı, Birləşmiş Ştatlar xalqı və s.) müvafiq gəlir. Beləliklə, Azərbaycan vətəndaşlarının hər bir nümayəndəsi digərlərin hüquq bərabərliyinə malikdirsə, deməli, Azərbaycan vətəndaşlarının toplumu Azərbaycan millətidir! Azərbaycan milləti ölkəmizin bütün vətəndaşlarından, bütün etnik qruplarından - türklərdən, talışlardan, ləzgilər-dən, ruslardan, kürdlərdən ibarətdir. Yalnız bu halda millətçilik mütərəqqi xarakterizə olur, millətin müstəqil dövlət qurmaq əzmi kimi başa düşülür.

Türklüyə və talışlığa gəldikdə isə, bu anlayışlar siyasi yox, mədəni məna kəsb etməli və hər bir vətəndaş, mədəniyyət xadimi onu sərbəst surətdə seçmək hüququna malik olmalıdır. Məktəblərdə Azərbaycan torpağının tarixi tədris olunmalı, qədim türklərin və ya avarların tarixinin öyrənilməsi məsələsini isə yerli idarəetmə orqanları həll etməlidirlər..."

## Etnik millətçilikdən dövlət-millətə doğru

Milli məsələnin həlli, etnik siyasət barəsində demokratik prinsiplərə əsaslanan konkret təkliflər A.Balayevin məqaləsində yaxşı ifadə olunub. Həmin məqalədən parçalar təqdim edirik.

Aydın BALAEV,
*(Etnik millətçilikdən dövlət-millətə doğru, "Azadlıq", 23.04.94)*

" 1. Azərbaycan Respublikası təkcə azəri türklərinin deyil, ölkənin bütün əhalisinin öz müqəddəratını təyin etməsi nəticəsində yaranıb. Bu baxımdan, ölkənin bütün vətəndaşları etnik və digər fərqlərdən asılı olmayaraq bərabər siyasi, iqtisadi və sosial hüquqlardan istifadə etməlidirlər.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

2. İnsan haqları hər cür kollektiv (millət, dövlət və s.) maraqlardan üstündür. Respublikanın etnik siyasəti İnsan haqlarının müdafiəsi haqqında beynəlxalq müqavilələrdə təsbit olunmuş prinsiplər əsasında qurulmalıdır.

3. Respublika əhalisinin polietnik tərkibi ölkəmizin milli sərvəti hesab olunmalıdır (plüralizm informasiya doğurur - H.H.). Heç kəs məcburi assimilyasiya siyasəti yeritməyə cəhd etməməlidir.

4. Demokratlar milləti etnik deyil, öz müstəqil dövlətini yaratmış bərabərhüquqlu vətəndaşların könüllü siyasi birliyi kimi qəbul edirlər. Azərbaycanda yaşayan bütün əhali, bütün vətəndaşlar, bütün etnik qruplar Azərbaycan millətini - müstəqil ölkənin tamhüquqlu vətəndaşlarının birliyini təşkil edirlər.

5. ABŞ gerbində həkk olunmuş deviz - “ E Pluribus unum “ (Müxtəliflikdə birlik) - Azərbaycan millətinin devizinə çevrilməlidir.

6. Azərbaycan Respublikası, əhalisinin əksəriyyətini türklər təşkil edən polietnik tərkibə malik unitar dövlətdir.

7. “Azəri türklərinin ölkə əhalisinin əksəriyyətini təşkil etmələri nəinki onlara heç bir imtiyaz vermir, əksinə, etnik azlıqların hüquqlarının qorunması sahəsində onların üzərinə əlavə məsuliyyət qoyur” (M.Ə.Rəsulzadə).

*TƏKLİF: (H.H.) Qeyd edək ki, ölkəmiz üçün burada təqdim olunan etnik sülh konsepsiyası cəmiyyətçimizin uzun diskussiyanın gedişində hazırladığı birinci və yeganə demokratik konsepsiyadır. Hərəkatın bütün “ideoloqları” bu diskussiyada iştirak edir və ya qəzet səhifələrində onu diqqətlə izləyirdilər. Bu baxımdan həmin konsepsiya demokratiyanın 700 il inkişaf etdiyi Avropadan hazır şəkildə cəmiyyətimizə təqdim olunan başqa konsepsiyalardan fərqlənir.*

*Buna görə də demokratik ölkələrdə cəmiyyətin bu məsələdə yekdil fikrə gəlməsi üçün həmin konsepsiya ətrafında diskussiyanı genişləndirmək lazımdır.*

*O zaman cəsarətlə demək olar ki, cəmiyyətimiz (özü!) qarşısında duran problemi həll etdi, onun qanunvericilik və texniki icrasını isə uzun müddət gözləmək lazım gəlməyəcək (H.H).*

## İnsan Haqları və beynəlxalq münasibətlər

*Ayrıca şəxs kimi dövlətin də “əsl sərvəti”*
*yad torpaqları ələ keçirmək, yaxud istila etmək yox,*
*öz torpaqlarında səmərəli istifadədən ibarətdir.*
Taleyran

Fransa inqilabının nəzəriyyəçisi və fəal iştirakçılarından birinin yuxarıda göstərilən fikri təkcə humanist nəsihət deyil, demokratik ölkənin İnsan və Vətəndaş haqları Bəyannaməsində öz əksini tapmış - Azadlıq, Mülkiyyət, Təhlükəsizlik, Zora müqavimət göstərmək hüququ kimi liberalizmin fundamental prinsiplərinə əsaslanan xarici siyasətin başlıca müddəasıdır.

Fransa inqilabı bəyan etdi ki, insanın mülkiyyəti toxunulmazdır və zor gücünə zəbt oluna bilməz. Bu prinsip ölkə daxilində həqiqətən müqəddəs hesab olunursa, o, başqa ölkə vətəndaşlarının mülkiyyətinə də aid edilməlidir; o cümlədən demokratlar da mülkiyyəti zorla zəbt edə bilməzlər.

Aydındır ki, beynəlxalq təhlükəsizlik şərtləri olmasa, təkcə ölkə daxilindəki sabitlik hesabına dövlət ayrıca şəxsin təhlükəsizliyini təmin edə bilməz.

İnsan Azadlığı da eynən - həm “daxili”, həm də “xarici” təzyiqi, xarici təcavüzkarın zorakılığını istisna edir.

Beləliklə, həm ədalətli daxili, həm də xarici siyasətin əsasları bu prinsipləri bəyan etmiş İnsan və Vətəndaş haqları Bəyannaməsindən irəli gəlir. Həmin siyasət isə Taleyranın bu fəsilə epiqraf kimi verilmiş fikrinə əsaslanmalıdır. Həmin siyasətdən çıxan nəticə haqqında böyük alman filosofu İmanuil Kant da (1724-1804) gözəl deyib: “Demokratiyalar bir-biri ilə savaşmır”.

Napoleon işğallarının fəal iştirakçısı olan Taleyran bu prinsipə əməl etməsə də, bu gün demokratik millətlər ona tam müvafiq surətdə əməl edir. Puerto-Riko parlamenti mütəmadi olaraq bu ölkəni 52-ci ştat kimi öz tərkibinə

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

qəbul etmək xahişi ilə ABŞ konqresinə müraciət edir və rədd cavabı alır. Bu yaxınlarda Finlandiyada keçirilmiş rəy sorğusu göstərdi ki, finlərin əksəriyyəti keçmiş Karel-Fin MSSR-nin ölkəyə birləşdirilməsinin əleyhinədirlər. Finlər belə fikirləşirlər ki, başqalarına məxsus olanı əldə etməyə cəhd göstərməkdənsə, öz evində qayda-qanun yaratmaq gərəkdir.

Burada ATƏT iştirakçısı olan ölkələrin imzaladıqları Helsinki müqavilələri üzərində dayanmamaq mümkün deyil. Həmin müqavilələrin sivilizasiya üçün çox mühüm əhəmiyyəti var. Tarixdə ilk dəfə olaraq, ATƏT görüşlərinin yekun sənədlərini imzalamış ölkələr belə razılığa gəliblər ki, öz vətəndaşlarına şəxsi və siyasi hüquqlarını tapdayan hökumətlər digər ölkələrin vətəndaşlarına da hörmətlə yanaşa bilməzlər və onlar sülhpərvər dövlətlər hesab olunmayacaqlar. Buna görə də ATƏT ölkələri İnsan haqlarını beynəlxalq təhlükəsizliyin əsası hesab edir.

## İnsan Haqları - Amerika təcrübəsi

Ketrin FİTSPATRİK,
*"Amerika insan haqlarını müdafiə*
*hərəkatının təcrübəsi" məqaləsindən*
*(Doklad, 1991, Moskovskaya xelsinkskaya qruppa)*

"İnsan haqları" anlayışı əsl mənada yalnız 70-ci illərdə geniş yayılıb və Qərbdə bir çoxları üçün prezident C.Karter hökumətinin fəaliyyəti ilə bağlıdır. Məhz həmin fəaliyyət sayəsində İnsan haqları ilk dəfə olaraq beynəlxalq siyasətin ayrılmaz hissəsinə çevrildi. Əlbəttə, buna qədər də Amerika öz beynəlxalq fəaliyyətində mənəvi prinsipləri əsas tuturdu; Ruzveltin "dörd azadlığı"nı və prezident Vilsonun "dünya-da demokratiyanı təmin etmək" uğrunda kampaniyasını yada salmaq olar.

Amma təkcə vətəndaş və dünya müharibəsi nəticəsində dəfələrlə uğur qazanmış azadlıq və demokratiya uğrunda mübarizənin öz məqsəd və formalarına görə həmişə dinc yolla aparılan insan haqları uğrunda mübarizə ilə üst-üstə düşməsi məcburi deyil (İnsan Haqları demokratiya sisteminin hissəsi olsa da).

Amerikada vətəndaş haqları uğrundakı hərəkatı "Hüquqlar haqqında Bill"siz və Konstitusiyasız təsəvvür etmək çətindir; bununla əlaqədar sual meydana çıxır: hər hansı haqlar uğrunda mübarizə, həmin haqların mövcudluğunu qabaqcadan qəbul etmədən ümumiyyətlə mümkündürmü? Amerika konstitusiyasının preambulasında məhz bu təsdiq olunur:

*"Biz, bütün insanları Tanrının bərabər yaratdığını və onların hamısının müəyyən alınmaz haqları olduğunu mütləq və şübhəsiz həqiqət hesab edirik ..."*

Prezident və Konqresdən asılı olmayan ABŞ Ali məhkəməsinin son 30 illik tarixi - insan haqları uğrunda mübarizə hərəkatının tarixidir (Ali məhkəmə söz azadlığından tutmuş abort problemlərinə kimi bütün vacib problemlərin geniş dairəsi ilə məşğul olur).

Unutmayaq ki, İnsan haqları uğrunda mübarizədən öncə insanlar kütləvi surətdə əvvəlcə Avropadan, sonra isə Asiya və digər yerlərdən istibdad, müharibə və təqiblərdən yaxa qurtararaq Amerikaya qaçırdı. Çoxsaylı müxtəlif dini təriqətlər eyni bir torpaqda azadlıq axtarırdılar. Təbii ki, belə şəraitdə müxtəlif dini və siyasi əqidələrə dözümlülük fəal himayə və müdafiə olunurdu.

Məhz bu dözümlülük ideyası və rəy müxtəlifliyinə hörmət bizim mülki cəmiyyətin təşkilinin yeganə və mühüm prinsipidir - qanunvericilik yolu ilə qoyularaq, təcrübədən doğmuş prinsipidir.
*(H.H. - Oxucuların diqqətini burada saxlamaq istərdik: belə ki, çoxəsrlik təcrübələrdən yaranmış demokratiya bizdə yoxdur, buna görə həmin təcrübəni özümüz fəal surətdə qazanmalıyıq (əlbəttə, bunun nə olduğunu özümüz üçün aydınlaşdırandan sonra), çünki Azərbaycanda demokratik mübarizənin predmetlərindən biri məhz budur.)( Bax: Təklif).*

Bütün Amerika təcrübəsinin mərkəzi ideyası belədir: hökumət qəddar və qanunsuzdursa, xalqın iradəsinə əsaslanmırsa, onu devirmək olar. ... Amerika sistemi azadlıq və demokratiya uğrunda aparılan siyasi və silahlı mübarizənin gedişində yaransa da, vətəndaş haqları uğrunda mübarizə müstəqil olmasa da, ayrıca mübarizədir. Onun məqamı o vaxt çatır ki, ədalətli qanunun hakimiyyəti kimi anlanan hüququn hökmranlığı mülki cəmiyyətin əsası kimi bərqərar olsun. Ədalətli qanunlar, müstəqil məhkəmə və peşəkar hüquqşünaslar olmadan insan haqları uğrunda mübarizə sadəcə olaraq aşkarlıq uğrunda mübarizədir: hakimiyyətdəkilərdə çaşqınlıq yaratmaq və onların

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

vicdanını oyatmaq ümidi ilə cinayətlər barəsində məlumatları geniş kütlələrə bildirməkdir. Belə mübarizə hüquqilikdən daha çox mənəvi xarakter daşıyır...

## Özümüzdən əlavə edək...

H.H. - Əlavə edək ki, cəmiyyətdə Vicdan haqqında anlayış yoxdursa və adamlar yalan və korrupsiya ilə barışmışlarsa (biz bunu Azərbaycanda müşahidə edirik), bizim demokratiya və insan haqları uğrunda mübarizəmiz qeyri-mümkün olur. Düzdür, bizə hökumətdəki yağlı yerlər uğrunda mübarizə qalır, lakin bu, artıq heç də bizim başladığımız şey deyil...

*Buna görə də əxlaqi prinsiplər, vicdan təmizliyi uğrunda mübarizə Azərbaycan demokratlarının mübarizəsinin əsas istiqamətlərindən biri olmalıdır.*

Demokratik özünüidarə yalnız əxlaqi cəmiyyətdə mümkündür. Biz müdrik rəhbərlərin daimi qəyyumluğundan imtina etmək qərarına gəlmişiksə, onda əxlaqi prinsiplərdən savayı, cəmiyyəti parçalanmadan nə qurtara bilər? ABŞ Konstitusiyasının müəlliflərindən biri olan Aleksandr Hamilton yazır:

*"Əxlaq rədd edildiyi zaman yalnız despotizm terroru insanın qızğın ehtiraslarını cilovlayıb, onu ictimai vəzifə çərçivəsinə sala bilər."*

Demokratiyanın yalnız əxlaqi cəmiyyətdə mümkünlüyü məsələsi daim demokratiya nəzəriyyəçilərinin diqqət mərkəzində olub: Aleksis de Tokvill yazır ki, siyasi əlaqələrin (dövlət nəzarəti) zəifləməsinə mütənasib olaraq əxlaqi əlaqələr möhkəmləndirilmirsə, cəmiyyət dağılmaqdan necə xilas ola bilər?

Vicdan demokratik şüurun tərkib hissəsidir. Lakin bu, əxlaqın ən yüksək dərəcəsidir, onun cəmiyyətimizin keçmədiyi birinci pilləsi isə namusdur. Biz namusu, sonra isə vicdanı ictimai münasibətlərə tətbiq etməliyik, yalnız bu yolla məqsədimizə çata bilərik. Bundan əlavə, bu, demokratik prosesin elə başlıca tərkib hissələrindən biridir ki, qanunun Aliliyi məhz ona əsaslanır. Bunun üçün isə çox az şey tələb olunur: bir cür danışıb, başqa cür hərəkət etmək olmaz (ya olduğun kimi görün, ya da göründüyün kimi ol); həmçinin ətrafda belə hərəkət edən varsa, buna susub göz yummaq olmaz.

## Soljenitsın qayıdıb

İyirmi illik sürgündən sonra haqlı olaraq öz ölkəsinin - Rusiyanın vicdanı adlandırılan bir şəxs vətənə qayıdıb. Yalan və zor sisteminə təklikdə meydan oxumağa başlamış Soljenitsın qalib kimi qayıdıb. Bu Nobel mükafatı laureatının əsərlərindən çox az şey Azərbaycan oxucularına məlumdur. Soljenitsının əxlaq, mənəviyyat və siyasətin birləşdirilməsi haqqında sözlərini tez-tez iqtibas gətirirlər. Bu gün, fəal mənəvi axtarışda olan (hər halda mən belə düşünmək istərdim) bizlər üçün onun fikirləri xüsusilə aktualdır: "Mən tədricən əmin oldum ki, - deyə Soljenitsın qeyd edir, - xeyiri şərdən ayıran sərhəd qitə və ölkələrdən, din və ideologiyalardan, millət və insanlardan keçmir; bu sərhəd birbaşa insan ürəyindən keçir..."

## İnsan Haqları və barışmalı olduğumuz nizamsızlıq

Cəmiyyət azad olduqca cinayətkarlığın xeyli dərəcədə artması keçmiş sosialist düşərgəsi ölkələrində demokratik islahatların bir çox tərəfdarına gözlənilməz oldu. İnsanın şəxsi və siyasi haqlarının pozulmasına son qoyulsa da, cəmiyyətin öz təhlükəsizliyi üçün narahatlığı artdı. SSRİ dövrünü, xüsusilə onun Stalin mərhələsini yada salsaq, görərik ki, o dövrdə kommunist təbliğatının əsaslarından biri - Qərb ölkələri ilə müqayisədə ölkədə cinayətkarlığın aşağı səviyyədə olması - yalan deyilmiş və bu gün azad cəmiyyətdə avtoritar cəmiyyətə nisbətən qarışıqlıq daha çoxdur.

Demokratik ölkələrdə cinayətkarlıqla mübarizənin çətinliyinin fundamental səbəbləri: günahsızlıq prezumpsiyası prinsipi, andlılar məhkəməsinin mövcudluğu, hər cür əqidə azadlığı, sərbəst yerdəyişmə prinsipi (pasport sisteminin olmaması) və vətəndaşların dövlətin müdaxiləsindən etibarlı şəkildə qorunan digər şəxsi və siyasi hüquqlarıdır.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Məhkəməsiz heç kəs cəzalandırıla bilməz, demokratik ovqatlı və müstəqil andlılar isə heç vaxt birbaşa sübutlar olmadan cinayətkarı məhkum etməzlər.

Bir nəfəri günahsız cəzalandırmaqdansa, doqquz cinayətkarı buraxmaq yaxşıdır - demokratik məhkəmənin əsas prinsiplərindən biri budur. Bu yolla bir çox cinayətkarlar azadlıqda qalmağa müvəffəq olur.

Avtoritar cəmiyyətdə isə bunun əksi baş verir, burada məhkəmə bir cinayətkarı azad etməkdənsə, doqquz günahsızı məhkum etməyi üstün tutur.

Azadlığı ən ali dəyər hesab edən şəxs demokratiyanın belə çatışmazlıqlarına hazır olmalıdır. Bu yerdə böyük Amerika mütəfəkkiri, ABŞ-ın Müstəqillik Bəyannaməsinin müəllifi Bencamen Franklinin (1706-1790) kəlamı yada düşür: "Əsas azadlıqlarını, kiçik və müvəqqəti olan əminamanlığa dəyişdirməyə razı olanlar nə azadlığa, nə də əmin-amanlığa layiq deyillər".

* * *

# 6. ÖZÜNÜİDARƏ

## "Səpələnmiş bilik" nəzəriyyəsi

Özüidarəolunan sistem (məsələn, bazar, demokratik cəmiyyət) yuxarıdan idarə ediləndən daha səmərəlidir, çünki istənilən qərarın qəbul edilməsi üçün lazım olan informasiya belə sistemdə (sistemin hər bir elementində olan informasiyaların məcmusu) mərkəzləşdirilmiş qurumun yuxarı təbəqəsində olan-dan çoxdur. Lokal (məsələn, bazarla əlaqədar) qərarların qəbul edilməsi üçün cəmiyyətdə olan zəruri biliklər toplusu "səpələnmiş bilik" adlanır.

Məhz bu nəzəriyyə AXC-nin - ilk dəfə olaraq demokratik mərkəziyyət prinsipinə əsaslanmayan təşkilatın birinci Nizamnaməsinin özəyini təşkil edirdi.

## AXC-nin birinci nizamnaməsi - özünüidarənin ilk təcrübəsi

*- "Yuxarı orqanların qərarları AXC üzvləri üçün tövsiyə xarakteri daşıyır...*
*- AXC-nin tədbirlərində təşkilat üzvlərinin iştirakı könüllüdür...*
*- Təşəbbüslə çıxış edən AXC üzvü və ya bölməsi həmin təşəbbüsün həyata keçirilməsinin əsas əlaqələndiricisi olur..."*

(AXC-nin 1989-cu il iyulun 16-da qəbul *edilmiş ilk Nizamnaməsindən)*

Hikmət HACIZIDƏ
*("Müxalifət" qəzetinə müsahibə, 08.01.92)*

...AXC Təşəbbüs mərkəzinin nümunə götürə biləcəyi bütün İttifaq təşkilatları demokratik mərkəziyyət prinsipi əsasında qurulmuşdu. Onlar ciddi şəkildə yuxarıdan idarə olunur və nəhəng mexanizmin hissəciklərinə çevrilmiş ayrı-ayrı üzvlərin təşəbbüskarlığı boğulurdu. Nəticə də göz qabağında idi. Ölkədə islahat aparmaq üçün qlobal nəzəriyyələrdən biri özünüidarəetmə, özünütənzimləmə, cəmiyyətin özünənəzarəti, ictimai həyatın əksər sahələrinə dövlət müdaxiləsinin məhdudlaşdırılması, hakimiyyətin dövlət məmurlarının əlindən alınıb ictimai və sənaye asosiassiyalarına verilməsi nəzəriyyəsi idi. "Yenidənqurma" müəllifləri məhz bu konsepsiyanı əsas kimi götürürdülər.

Gələcək Azərbaycan cəmiyyətinin ilk təmsilçisi olacaq prinsipcə yeni təşkilat yaradarkən biz də bu yolla getdik.

Bu təşkilat yuxarıların göstərişlərindən mümkün qədər az asılı olmalıydı. Onun ilkin özəkləri əvvəllər görünməmiş sərbəstliyə malik idi. Biz onların aktiv təşəbbüskarlığı üçün şərait yaradırdıq. Eyni bir problemin həlli müxtəlif bölmələrdə müxtəlif yollarla aparıla bilərdi. Bu strukturda mərkəz aşağıdan gələn təşəbbüsü bütün təşkilata yaymaqla məşğul olan əlaqələndirici özək rolunu icra etməliydi. Bun-dan əlavə, özünüidarə vərdişlərini yaratmaq məqsədi ilə bilərəkdən Nizamnamədə AXC-nin heç bir orqanında sədr vəzifəsi nəzərdə tutulmamışdı və rəhbərlik kollektiv şəkildə həyata keçirilirdi.

HİKMƏT HACIZADƏNİN Arxiv KİTABXANASINDAN

İnsanın ən kamil orqanı olan beyin də bu cür qurulmuşdur. Onun da bu və ya digər problemi necə həll etmək lazım gəldiyini göstərən vahid idarəedici mərkəzi yoxdur. Bütün elementar özəklər müstəqil fəaliyyət göstərərək, məsələnin həllini paralel axtarır.

Belə sistem "neyroşəbəkə" adlanır və son nəsil kompüterlərinin işində istifadə olunur. O, mərkəzləş-dirilmiş sistemə nisbətən ləng işləsə də, daha effektiv və sabitdir.

Mərkəzləşdirilmiş ardıcıl hesablama sisteminin gücsüz olduğu yerdə "Neyroşəbəkə" məsələnin həllini tapır. Bundan əlavə, həmin sistemin hər hansısa özəyi sıradan çıxarsa qalan hissələr özlərini yenidən quraraq, itkini əvəzləyir və fəaliyyətlərini davam etdirir. Mərkəzləşdirilmiş strukturda isə bircə özəyin parçalanması iflicə gətirib çıxarır.

AXC-nin "neyroşəbəkə" şəklində qurulmuş strukturu 1990-cı ilin 20 yanvar hadisələrindən sonra həqiqiliyini nümayiş etdirdi. Mərkəz - AXC-nin İdarə Heyəti mövcud olsa da, bir çox rayon şöbələri ilə əlaqə kəsilmişdi. Özünüidarəyə öyrədilmiş AXC-nin rayon şöbələri iki-üç ay ərzində fəaliyyətlərini bərpa etdilər. Yazın sonuna kimi isə AXC yenidən ayağa qalxdı...

Özünütənzimləyən sistemin mərkəzdən idarə olunanla müqayisədə üstünlüyünü göstərən dəqiq riyazi sübutlar da mövcuddur. Axı insanın düzgün qərar qəbul etməsi üçün problem haqqında dəqiq məlumatı olmalıdır. Sübut edilmişdir ki, ən yaxşı təşkil olunmuş mərkəzləşdirilmiş strukturda belə onun "siyasi bürosu" bütün ilkin özəklərdə olandan nisbətən daha az məlumata malik olur. AXC Təşəbbüs mərkəzinin qarşısında müdrik liderlərin göstərişi olmadan özünüidarəetmə sxemi ilə işləməyi öyrənmək, sonra isə bunu bütün təşkilata yaymaq vəzifəsi dururdu.

Lakin ikincini etməyə bizim vaxtımız çatmadı. Hadisələr elə sürətlə inkişaf edirdi ki, AXC-nin çox tez bir zamanda nüfuz qazanması nəticəsində təfəkkürü köhnə dövrə və inzibatçılıq prinsiplərinə uyğun gələn xeyli adam təşkilata daxil oldu. Onların çoxu pak, müdrik rəhbər (mürşid) axtarırdılar ki, ona qəlbən inanaraq "axıra qədər" arxasınca getsinlər. AXC İdarə heyəti daim iki mühüm məsələni həll etməli olurdu: siyasi mübarizə problemləri və təşkilatın üzvlərində müstəqillik, təşəbbüskarlıq vərdişlərinin tərbiyə olunması. Bunlarsız cəmiyyətdə nəyisə dəyişdirmək mümkün deyil.

*Sərt inzibatçılığın xeyrinə özünüidarəetmədən imtina etdikdə mübarizəmizin mənası itirdi, çünki son nəticədə biz elə həmin diktaturanı (düzdür əksnişanlı) əldə edirdik.*

... Özünüidarə, demək olar, zorla həyata keçirilirdi. İlkin özəklərə hüquqlarını nə qədər başa salmağa çalışsaq da, onlar yenə də böyük həvəslə özlərinə rəhbər seçməyə can atırdılar ki, bütün azadlıqlarını təhvil verib, ondan möcüzə tələb edə bilsinlər. Bizim bütün səylərimizə baxmayaraq, AXC-nin konfederativ, özünüidarə strukturu tədricən demokratik mərkəziyyət strukturuna çevrilirdi...

Özünüidarə üzrə ilk təcrübəni tamamilə həyata keçirmək mümkün olmadı. Lakin bu gün qətiyyətlə deyə bilərik ki, hərəkatımız o dövrdən sonra özünüidarə istiqamətində irəliyə doğru xeyli addımlar atıb, özünüidarə təcrübəsi toplayıb. Artıq 1991-ci ilin əvvəllərində AXC-dən başqa onlarla müstəqil ictimai təşkilat, qəzet və informasiya agentliklərini özündə birləşdirən Azərbaycandakı mülki cəmiyyət dövlətin tam fəaliyyətsizliyi şəraitində böyük uğurla erməni təcavüzkarlığına qarşı dururdu...

## "Sıravi seçiciyə" müraciət

DEMOKRATİYA HEÇ KƏSƏ HAZIR NAHAR TƏKLİF ETMİR

Bu bölmə demokratik hərəkatın fəalları, aktiv həyat mövqeyi olanlar üçün yox, "sıravi seçici" adlandırılan şəxslər üçün yazılıb.

Biz bu gün həm demokratik şüarlara, həm də ümumiyyətlə, siyasətə qarşı "sıravi seçici"nin total məyusluğunu müşahidə edirik. "Biz demokratlara elə inanırdıq ki, bəs nəticəsi nə oldu? Hanı "cəbhədəki qələbələr, hanı iqtisadi dirçəliş? Nə üçün korrupsiyanın kökü kəsilməyib?"

Belə adamlara başa salmaq çətindir ki, ədalət və firavanlıq təkcə hökumətin səyləri nəticəsində bərqərar oluna bilməz. Belə olsaydı, kommunistlər bunu çoxdan etmişdilər.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Demokratiya insana yalnız aşağıdakı imkanları verə bilər:

**- şəxsi və siyasi hüquqları uğrunda mübarizə etmək;**

**- iqtisadi maraqları uğrunda yarışa girmək;**

**- əldə silah öz torpaqlarını qorumaq (unutmayaq ki, 1992-ci ilə qədər kommunistlər milli ordu yaratmağa imkan vermirdilər).**

İnsanlar öz maraqları uğrunda mübarizə apara bilmirlərsə, yaxud bunu etmək istəmirlərsə, bunun təqsiri demokratiyada deyil və belə halda onlara heç kəs yardımçı ola bilməz...

“Sıravi seçici”nin vəd olunmuş iqtisadi islahatlarla bağlı ümidləri də əsassız idi. İslahatçılar zəruri qanunların qəbul edildiyini və islahatların uğurla getdiyini bildirirdilər. “Sadə seçici” isə təkid edir ki, islahatlar getmir, çünki həyatda heç nə dəyişməyib. Mənim əziz “adi seçicim”, islahat özlüyündə həyatın düzgün rəqabət qaydalarını müəyyənləşdirir. Sizin bu yarışda necə iştirak etməyiniz isə öz işinizdir. Siz siyasi və iqtisadi maraqlar uğrunda mübarizə aparmaq əzmində deyilsinizsə, belə halda heç bir hökumət və islahatlar sizə kömək etməyəcək.

Heç bir namuslu prezident və ya nazir sizdən rüşvət tələb edən hər bir məmuru nəzarət altında saxlamaq iqtidarında deyil. Siz rüşvətxorun elə ilk tələbindən sonra (adətən, belə də olur - ilk tələbdən dərhal sonra) pulu çıxarıb masanın üstünə qoyursunuzsa, belə halda kimi suçlandırmaq olar?

Bundan başqa, insan təbiətinin natamamlığı adətən ona gətirib çıxarır ki, sizin daimi nəzarətinizdən (sevgi və inamınızdan deyil, məhz nəzarətinizdən) kənarda qalmış və hüquqlarınız uğrunda mübarizə aparmayacağınıza arxayın olan istənilən rəhbər və hökumət ya qərəzli məqsədlər naminə, ya da “ümummilli maraqlar”la pərdələnərək cəmiyyəti aldatmağa başlayacaq.

Azad cəmiyyətlərin idarə olunmasında ilkin məsuliyyət hökumətin yox, qərarların qəbulunda dövlətdən müstəqillik əldə etmiş və onların nəticələrinə görə cavabdehlik daşıyan adamların üzərinə düşür.

Bəzilərinə elə görünə bilər ki, Qərb ölkələrində hökumətin qayda-qanun və ədaləti bərqərar etməsindən sonra hamı sakit, firavan və xoşbəxt həyat sürməyə başlayıb... İnanın ki, Qərbdəki ədalət və korrupsiyanın aşağı səviyyəsi hər bir adamın öz maraqları uğrunda məmurlarla (polisdən tutmuş prezidentə kimi) daimi mübarizəsinin nəticəsidir. Hamı hamıya nəzarət edir, hamı hamıdan hesabat tələb edir! Hər hansı korrupsiya və insan haqlarının pozulması faktı barəsində hay-küy qaldırmağa hazır olan jurnalistlər daim cəmiyyətdəki durumu izləyirlər.

Azad cəmiyyətdə stresslərin (gərginliyə orqanizmin mənfi reaksiyasının) sayı avtoritar cəmiyyətdəkin-dən daha çoxdur, məhz buna görə də yarış öz gərginliyi və narahatlığı ilə gözətçisinin nəzarəti altında görülən darıxdırıcı monoton əməkdən fərqlənir. Öz hüquqları uğrunda, yeni yaranan problemlərlə mübarizə dünən olduğu kimi bu gün də Qərbdə inadla davam etdirilir. Kompüter disketlərinin qablaşdırıldığı qutunun üstündə istehsalçının firavan Amerikada insanları mübarizəyə, aktiv həyat mövqeyinə səsləyən belə bir çağırışını oxudum:

*“Heç vaxt şübhə etməyin ki, düşünən adamlardan təşkil olunmuş kiçik qrup belə dünyanı dəyişə bilər. Həqiqətdə bu elə belə də olur...”*

Demokratiya sizə ədalətli yarış təklif edir; amerikalıların tez-tez təkrar etdikləri kimi, o, hamı üçün bərabər imkanlar yaradır, lakin heç kimə hazır nahar təklif etmir...

Son olaraq həyatda fəal mövqe seçmiş adamlara Amerikanın 26-cı prezidenti Teodor Ruzveltin məşhur sözlərini xatırlatmaq istəyirəm. Qoy bu sözlər çoxumuzda seçdiyimiz yolun doğruluğuna və şərəfliliyinə inam yaratsın:

*“Hadisələri sadəcə qeydə alan, yaxud onları yalnız tənqid edən adam hörmətə layiq deyil. Hörmətə layiq olan o kəsdir ki, qan-tər içində meydana çıxır, var gücü ilə çalışır, dəfələrlə səhv etsə də, yanılsa da, yolundan dönmür. Səhv və yanlışlıq hər bir işdə olur.*

*Hörmətə layiq olan o kəsdir ki, xeyirxah işlər görür, əsl fədakarlığın nə olduğunu bilir, ömrünü bütövlükdə ləyaqətli işə həsr edir, anlayır ki, bəxti gətirsə, xoş qələbə hissiyyatı onu çulğalayacaq, məğlub olanda da gərgin mübarizədə məğlub olacaq. Onun ruhu heç vaxt nə qələbənin, nə məğlubiyyətin dadını bilməyən adamların soyuq, biganə ruhu ilə bir sırada dura bilməz”.*

Arxiv 2025 KITABXANASINDAN

* * *

# 7. MÜNAQİŞƏLƏRİN DİNC HƏLLİ ÖZÜNÜİDARƏNİN ƏSASLARINDAN BİRİDİR

Nə üçün bir-birimizə həqiqəti deməyə çətinlik çəkirik? Nə üçün əksər hallarda özümüzü bizə şəxsən aid olan məlumatı tələb etməkdən saxlayırıq? Nə üçün müdirimizdən və yaxud hər hansı müqavilə ilə bağlı olduğumuz adamdan hesabat tələb etməkdən çəkinirik?

Ona görə ki, belə məsələ bütün cəmiyyətlərdə mütləq münaqişəyə gətirib çıxarır! Münaqişələri həll etməyi isə hələlik öyrənməmişik, onlar bizim üçün, adətən, kiçik və böyük müharibələrlə bitir...

Münaqişələr bütün cəmiyyətlərdə labüddür. Qarşılıqlı fəaliyyətdə olan tərəflərin maraqları hər dəfə toqquşduqda onlar meydana çıxır. Bundan əlavə, münaqişələr faydalıdır! Münaqişələr cəmiyyəti irəli aparmaq üçün zəruri olan mübarizə və rəqabətin mahiyyətinin təzahürüdür.

Özüidarəolunan cəmiyyəti quranlar tədricən və böyük intellektual səylər hesabına idarəetmə və həqiqət axtarışı prosesində yaranan münaqişələri dinc yolla həll etməyi öyrəniblər. Burada ilkin olaraq qəbul edilir ki, hər hansı mübarizə kimi isə əzmək və ya alçaltmaqdan ötrü deyil, dünyanı dərk etmək yolunda irəliyə doğru addımlamaq üçün aparılır. Münaqişədəki əks tərəf düşmən yox, ümumi problemlərin həlli yollarını tapmaq üçün mübarizə aparmalı olduğumuz həmkarlardır.

Çox səciyyəvidir ki, qədim İngiltərədə bir-birlərini amansızcasına əzişdirən boksçuların qonqun final zərbəsindən sonra bir-birinin əlini sıxması və yaxud Qərbdə seçkilərdə uduzmuş namizədin öz rəqibini qələbə münasibətilə təbrik etməsi adəti yaranıb.

*İnsana mənəviyyatın "Qızıl qanun"un tələblərinə uyğun münasibət bəsləmək və səhvləri aradan qaldırmaq naminə bir-biri ilə həmkar kimi mübarizə aparmaq, qarşılıqlı razılığa əsaslanan özüidarəolunan cəmiyyəti yaratmağın yeganə metodu budur...*

"Qızıl qanun" metodu o deməkdir ki, bizim hər birimiz başqalarını anlamaq və onlarla dinc yanaşı yaşamaq üçün özümüzdə qüvvə tapmalıyıq.

Mən demokratlarımızı münaqişələrin dinc həllinin konkret metodlarını axtarmağa çağırıram. Bu kitabın həcmi göstərilən problemə lazımi diqqət yetirməyə imkan vermir. Mövcud ədəbiyyatın məhdud siyahısından əlüstü topladığımız münaqişələrin həllinin konkret metod və prinsipləri haqqında bəzi məlumatları diqqətinizə çatdırırıq...

**I lost my self-control** (Mən özümə nəzarəti itirmişəm)

"Mən özümə nəzarəti itirmişəm" - bu ingilis ifadəsini Azərbaycan türkcəsinə dəqiq tərcümə etmək olmur. Bu ifadənin rus dilində də dəqiq tərcüməsi yoxdur, çünki "özünənəzarət" anlayışının Avropa mənasında qarşılığı rus dilində bir qədər başqadır...

Qərbdə yayılmış psixoloji mədəniyyətə görə, insanın "Mən"i onun "mexaniki" (əl, ayaq, bədən) və "psixi" (beyin, əsəb sistemi) aparatından ayrıdır.

"Mən" "insan" (bədən + əsəb sistemi) adlı "maşının" sürücüsüdür; "Mən" bu "maşın"ı idarə edir; "Mən" bu "maşın"a nəzarət edir. Buradan da "Mən" özümə nəzarəti həyata keçirirəm...

Əgər "Mən"imlə nə isə bir şey baş verirsə, məsələn, mən qışqırır, kiməsə qarşı kobudluq edir, dava salır və ya qəflətən ciddi səhvə yol verirəmsə, bu heç də o demək deyildir ki, "Mən" "pis adamam", "davakaram", "təbiətcə pis əməkdaşam". Xeyr, "Mən" - yaxşı, normal adamam! Amma, "Mən" nədənsə müəyyən müddətə "özümə nəzarəti itirmişəm". "Mən" "insan" (bədən + əsəb sistemi) adlı "maşınıma" nəzarəti itirmişəm. "Mən"

xəstələnməmişəm və dəli deyiləm. Ya “maşın” korlanıb, ya da “Mən” onun üzərində nəzarəti itirmişəm (ümid edirəm ki, mənim bu düşüncələrim bir o qədər də dolaşıq deyil).

İnsanın davranış mexanizmi barədə belə təsəvvür çox rahatdır və insanı öz həqiqi günahını və ya səhvini etiraf etməklə bağlı olan diskomfortdan xilas edir. Belə halda “Siz” özünüzü haqsız hesab etsəniz də, bu heç də o demək olmayacaq ki, siz - “pis adamsınız”. Xeyr, bu sadəcə, o deməkdir ki, “Siz” özünüzə nəzarəti itirmisiniz və yaxud “Sizin” payınıza təbiətdən pis “maşın” düşüb...

Bizim mədəniyyətimizdə təəssüf ki, bu cür “Mən” və “qalan maşın” bölgüsü yoxdur. Bu da çox vaxt onunla nəticələnir ki, günahını və səhvini boynuna almaq, özünün “təbiətcə qəddar” və ya “təbiətcə naqis” olduğunu etiraf etməyə bərabər olur. Müvafiq olaraq, ətrafdakılar təqsirkara ciddi cəzaya layiq olan düşmən kimi baxırlar.

Razılaşın ki, biz uğursuzluğumuzu etiraf etməkdə böyük çətinlik çəkirik. Aydın məsələdir ki, özünün “təbii naqisliyini” heç kəs boynuna almaq istəmir və nəticədə biz külli miqdarda mənasız münaqişələrlə qarşılaşmalı oluruq. Halbuki özüidarəolunan cəmiyyətdə belə münaqişələrin qarşısını almağı öyrəniblər.

Bu bölməni bitirərkən gözlənilmədən yadıma düşdü ki, bizim dildə də buna bənzər ifadələr var. Məsələn, biz tez-tez deyirik: “Ürəyim xəngəl istədi”. Bu ifadə məhz o deməkdir ki, “Mən” - bədəndən aralanmış məfhumdur və “Mən” məndən aralı olan ürəyimin səsini eşidirəm. Şübhəsiz, kamilləşməyə bizim hələ çox ehtiyatımız var...

## Özüidarəolunan cəmiyyətdə münaqişə və kompromislər

DEMOKRATIN ETİKASI

Mübarizə üçün bizim hansı hədəfləri seçməyimiz problemi üzərində daha ətraflı dayanaq (İmperiyalarla mübarizə aparırıq, amma böyrümüzdəki mənəviyyatsızlığa dözürük); demokratik və bizim indiki etik sistemin xüsusiyyətlərini nəzərdən keçirək, xüsusilə opponentlə kompromisin demokratik prosesdə rolu üzərində dayanaq. Söhbət demokratik siyasi dialoqun əsasını təşkil edən güzəştdən və əxlaqsız siyasi sistemin əsasını təşkil edən vicdanla kompromisdən gedir.

Məncə, uğursuzluğumuzun başlıca səbəblərindən biri bizim bugünkü əxlaq normalarımız - etikamızdır. Bu barədə keçmiş sovet, indi isə Amerika (1974-cü ildə mühacirət edib) sosioloqu V.Lefevr görün nə yazır (daha ətraflı məlumat üçün bax: “O dvux etiçeskix sistemax” - “Voprosı filosofii”, 7, 1990, M.).

“Kağızdan hazırlanmış insanın kağızdan düzəldilmiş dostları ilə yaşadığı oyuncaq qəsr təsəvvür edək. Gözlənilmədən qəsrə insan simalı əjdaha yaxınlaşır. Kağız adam darvazanı açıb cəsarətlə əjdahanın qabağına çıxır və ona əl uzadıb, onda insani hisslər oyatmağa çalışır. Lakin əjdaha ağzından od püskürdərək kağız adamı bir ovuc külə döndərir.

İndi isə digər kağız adamın öz kağız dostları ilə yaşadığı başqa bir oyuncaq qəsr təsəvvür edək. Başqa bir insan simalı əjdaha qəsrə yaxınlaşır.  Kağız adam eynilə darvazanı açıb əjdaha ilə vuruşmaq üçün əlindəki kiçicik qılıncla ona doğru gedir; bu kağız adam da alovun içində yox olur.

Kağız adam yandıqdan sonra hər iki əjdahanın qəsrə olan marağı itir. Beləliklə, qəsrin başqa sakinləri sağ qalırlar. Kağız adamlardan hər biri öz qəsrində müqəddəsləşdirilir, amma o biri qəsrin adamları başqa cür fikirləşirlər.

Birinci qəsrdə əlini dostcasına əjdahaya uzatmış kağız adam qəhrəman, ikincidə isə, qılınc götürməyə cəsarəti çatmamış zəif adam hesab olunur.

Əjdaha ilə mübarizə etməyə cəhd göstərmiş digər kağız adamcıq isə ikinci qəsrdə qəhrəman, birincidə isə, qılıncsız çıxmağa igidliyi çatmamış qorxaq hesab edilir.

Kağız adamlar haqqında pritçalardakı ziddiyyətlər (bir çox siyasi və həyati situasiyalarda olduğu kimi) iki müxtəlif etik sistemin fundamental xüsusiyyətini müəyyənləşdirməyə imkan verir. Buna bənzər halları qiymətləndirən amerikalıların çoxu birinci kağız adama, keçmiş sovet vətəndaşlarının əksəriyyəti isə əjdahanın qabağına kağız qılıncla çıxan ikinci kağız adama bəraət qazandırıblar...

Satış üçün nəzərdə tutulmayıb

Eyni zamanda, alimlər müxtəlif psixoloji eksperimentlərin gedişində aydınlaşdırıblar ki, "Amerika etik sistemi" "xeyirlə şər arasındakı kompromisə", məsələn iyrənc üsullarla xeyirxah məqsədə çatmağa, mənfi münasibət bəsləyir. "Sovet etikası" isə, əksinə, bunu müsbət qiymətləndirir. Keçmiş sovet vətəndaşları aşağıdakı suallara, adətən, müsbət cavab veriblər:

1. Əzablarını azaltmaq üçün həkim xərçəngə tutulmuş xəstədən onun diaqnozunu gizlətməlidirmi?

2. Təqsirsiz adamı xilas etmək məqsədilə məhkəmədə yalan ifadə vermək olarmı?

3. İmtahanda yoldaşa kömək etmək olarmı?

4. Başqalarına dərs olsun deyə, cinayətkara qanunda nəzərdə tutulduğundan daha sərt cəza vermək olarmı?

Amerikalıların çoxu bu suallara mənfi cavab verib. Beləliklə, iki etik sistemin müxtəlifliyi barədə qabaqcadan deyilənlər eksperiment yolu ilə təsdiqlənib.

Fərdlərin xeyirlə şər arasındakı daimi kompromisə mənfi münasibət bəslədikləri demokratik cəmiyyətlərdə münaqişəni sülh yolu ilə həll etməyə çalışan şəxsiyyətlərə üstünlük verilir (amerikalılar).

*(H.H.) Başqa sözlə, "amerikalılar" yalanla barışmasalar da, mübarizənin özündə kompromisə hazırdırlar.*

*Xeyirlə şərin birləşməsi müsbət qiymətləndirilən cəmiyyətlərdə isə münaqişədə güzəştə getməyən şəxslərə üstünlük verilir (sovet şəraitində tərbiyə buna gətirib çıxarırdı)..."*

*Yəni "sovet adamı" yalana göz yummağa hazırdır, amma münaqişə vaxtı o, rəqib tərəfə "öz mövqeyindən" bir qarış da güzəştə getməz.*

*Gəlin, özümüzü yoxlayaq. Siz ətrafınızdakı əxlaqsızlarla barışıb, əjdaha ilə son nəfəsədək (bu da tezliklə baş verməlidir, çünki qüvvələr həddən-artıq qeyri-bərabərdir) mübarizə aparmağa hazırsınızsa, deməli, Siz yuxarıda şərti olaraq "sovet sistemi" adlandırılan etik sistemin tərəfdarısınız. Bu sistemi arxaik, traybalist, konfrontasiyalı sistem adlandırmaq daha düzgün olardı (H.H.).*

## Lefevr ümumiləşdirir...

Bu iki növ etikadan irəli gələn davranışın sosial nəticələrini araşdıran Lefevr qlobal nəticəyə gəlir:

"Cəmiyyətdə ikinci (münaqişəli) etik sistemin hökmranlığı beynəlxalq münasibətlərdə və etnosun özünün inkişafında fəlakətli nəticələrə gətirib çıxarır. İkinci etik sistemin "qəhrəmanlarının" (heç bir güzəştə getməyən, barışmaz mübarizlərin) mövcudluğu müəyyən dozalarda cəmiyyət üçün "xeyirli" ola bilər. Amma bəla burasındadır ki, ikinci etik sistemin üstünlük təşkil etdiyi cəmiyyət hökmən öz qəhrəmanlarını məhv edir (20-30-cu illərdə SSRİ-də müşahidə edildiyi kimi) və belə halda, hətta həmin sistem baxımından mənəviyyatımız hesab olunan adamlar hökmranlıq etməyə başlayır.

Dövrümüzün ən qorxulu bəlası insanların kütləvi şəkildə məhv edilməsidir. Görünür, bu hər hansı bir ideologiya ilə bağlı deyil. Stalin, Hitler terroru, Çin, İran, Kambocadakı kütləvi qırğınlar müxtəlif ideoloji və tarixi ənənələr çərçivəsində həyata keçirilib. Belə kütləvi insan qırğınlarının rasional əsasını tapmaq çətindir.

*(Bu gün keçmiş SSRİ məkanını bürüyən qan bunun ən tutarlı təsdiqidir - H.H.).*

Bu qırğınlara bir qrup adamın fəaliyyətinin nəticəsi kimi baxmaq olmaz; 20-30-cu illərdə Sovet İttifaqında baş vermiş kütləvi repressiyaların təhlili göstərir ki, ölkə əhalisinin xeyli hissəsi həmin prosesə cəlb olunmuşdu.

Bunabənzər fəlakətlərin əsaslı səbəbləri hansılardır? Güman edə bilərik ki, belə fəlakətlərin əsasları ikinci etik sistemin özündədir.

Göstərilən mədəniyyətdə ikinci etik sistem üstünlük təşkil etməyə başlayırsa, onda həmin mədəniyyət hər bir cəmiyyət üçün təbii olan daxili münaqişələrin zəruri həllində aciz qalır. Belə mədəniyyətlərdə münaqişənin hər iki tərəfin ləyaqətini qoruyacaq həlli prosedurаları olmur..."

## Savaşa məhkum olunmuşlar?

MÜHARİBƏ İNSAN MÖVCUDLUĞUNUN BİR HİSSƏSİ KİMİ

*"Müharibə insanın irrasional mahiyyətindən doğur"*
(Müəllifin adı yadımdan çıxıb).

Robin FOKS,
*"Fatalnaya privyazannost: Voyna i çeloveçeskaya priroda" məqaləsindən*
*(Problemı Vostoçnoy Evropı, 37-38, 1993, Vaşinqton).*

Müharibələri yalnız sosial faktorlarmı yaradır? Bəlkə müharibələri din və seks kimi (sosial dəyişikliyin təsirinə məruz qalsalar da) sosial amillər doğurmur və deməli, onların qarşısını almaq olmaz?

Çox vaxt elə gəlir ki, müharibələrin əksəriyyəti məqsədsiz, kiminsə kefi üçün aparılır. Bununla barışmaq çətindir. Müharibənin çoxlu adamı asanlıqla çəkən cazibəyə malik olmasına inanmaq istəmirik. Əlbəttə, hər bir müharibənin konkret "bəhanə"ləri var, lakin bu heç də səbəb demək deyil. Xüsusi davakar cəmiyyətlərdə belə bəhanələr çox vaxt yüksək dərəcədə şərti olub, onun başlaması üçün "siqnal" rolunu oynayıb, arabir isə bu bəhanələr sadəcə müvəqqəti xarakter daşıyır...

... Paradoks bundadır ki, müharibə bizdə olan bütün yaxşı və pis cəhətləri üzə çıxardır... Görünür, müharibə mütərəddid və tənha olmuş fərdi "ümma" birliyinin bir hissəsinə çevirən, insanın özünə və həyata olan inamını bərpa etməyə imkan yaradan bitkin və şübhə doğurmayan dünyagörüşünə olan fundamental tələbatı təmin edir. Müharibənin kökləri təcavüzkarlıqda yox, insan atributlarının məhz bu dərinliklərində gizlənir...

... Burada əsas, şübhəsiz ki, açıq-aşkar görünən, amma çox vaxt diqqətdən yayınan "düşmənə" olan tələbatdır. Həyatımız yalnız uğurlardan ibarət olmadığından çanaq kiminsə başında çatlamalıdır.

Kimisə günahlandırmaq tələbatı asanlıqla cəmləşdirilən və özünə deyil, kənara, başqasına yönəldilən hissdir. Bundan sonra öz-özlüyündə sadə qərar yada düşür: ittiham obyektinin məhv edilməsi. İttiham üçün səbəblərin sayı da "müharibəni aparmaq üçün" səbəblərin sayı qədər sonsuzdur. Amma ittiham etmək tələbatı daimidir...

... Hər bir ayrıca götürülmüş müharibənin bəhanələri sonsuzdur. Amma son nəticədə "biz" "onlar"la vuruşuruq, çünki "onlar" "biz"dən seçilir və bu fərqlər öz mövcudluqları ilə "biz"im fundamental ideyalarımızın dəyərini dağıdır. Buna görə də bütün müharibələr ideoloji xarakter daşıyır.

...Müharibə əleyhinə hərəkat müharibənin əxlaqi ekvivalentidir, çünki o özü də gözəl mübarizlik nümayiş etdirir. Kabinetlərinin rahat sakitliyində müharibə ilə mübarizə aparanlara demək istəyirəm ki, ağzı köpüklənərək fəryad qoparmaq fanatizmin labüd xüsusiyyəti deyil. O, sakit və fikrini cəmləşdirmiş vəziyyətdə də ola bilər...

... Müharibənin bütün mümkün "bəhanə"lərini minimuma endirsək belə, qorxuram ki, nə qədər insan təbiəti dəyişməyib (onsuz da dəyişən deyil), biz müharibəyə başlamaq üçün bəhanələr axtarmaqda və hətta onları qəsdən icad etməkdə davam edəcəyik.

... Burada əks olunmuş mövqe düzgündürsə, müharibə müalicəyə ehtiyacı olan xəstəlik deyil, əksinə, normal insanın mövcudluğunun bir hissəsidir.

* * *

.

Satış üçün nəzərdə tutulmayıb